بسم الله الرحمن الرحيم

TBİLİSİ 2018

წიგნი დაბეჭდილია სსიპ სრულიად
საქართველოს მუსლიმთა სამმართველოს
სამეცნიერო საბჭოს ინიციატივით და
რეკომენდაციით

Bu kitab Bütün Gürcüstan Müsəlmanları İdarəsinin
Şərqi Gürcüstan müftiliyinin elmi şurasının təşəbbüsü və
məsləhəti ilə nəşr olunub.

სსიპ სრულიად საქართველოს მუსლიმთა
სამმართველო მადლობას უხდის
საქართველოს ახალგაზრდობის დახმარების
და საგანმანათლებლო საზოგადოებას წიგნის
გამოცემის ნებართვისათვის

Bu kitabın nəşrinə icazə verdiyinə görə Bütün Gürcüstan
Müsəlmanları İdarəsi Gürcüstan Gənclərinə Yardım və
Maarifləndirmə Təşkilatına təşəkkür edir.

| | |
|---|---|
| Hazırlayan | : Nurlan MƏMMƏDZADƏ |
| Nəşrə Hazırlayan | : Hacı BƏKİROĞLU |
| Dizayn | : Elsevər ƏHMƏDOV |

Esma Oniani st, Tbilisi, Georgia ,#23
Tel: (+995) 32 253 16 30
Mob: (+995) 577 62 30 31
ID: 401960794, Postal Code: 0159
E_mail: info.amag77@gmail.com

# სუნნას გარეშე რელიგია არასრულყოფილია

# Sünnəsiz Din Naqisdir

TBİLİSİ 2018

# HƏDİS – SÜNNƏ

Gözəl dinimizin iki əsas qaynağı var. Bunlar uca kitabımız **Qurani-Kərim** və Həzrət Peyğəmbərin (s.ə.s) **Sünnə**sidir.

Əshabi-kiram İslam dinini Qurani-Kərim və Hz. Peyğəmbərin şəxsiyyəti ilə müstəsna həyat tərzi olan sünnəsindən ibarət bir bütün olaraq tanıdı.

Hz. Peyğəmbərin vəfatından sonra İslam dini **Kitab** və **Sünnə**nin ortaya qoyduğu əsaslar çərçivəsində anlaşılaraq yaşanmağa çalışılmışdır.

Birinci xəlifə Hz. Əbu Bəkr (r.a) dövründə Quran ayələri bir yerə toplandı. Sünnənin əzbərlənməsi və yazaraq toplanması da Hz. Peyğəmbərin izni ilə öz

zamanında başlamışdır. 150 il ərzində tamamən yazılı hala gətirilən sünnə hicri 2-ci əsrdə, xüsusilə 3-cü əsrdə böyük hədis kitablarında cəm edildi. **Bu gün hədis kitablarında gördüyümüz həmin yazılı mətnlər sünnə sənədi olaraq hədis adı ilə tanındı.**

# A. Təriflər

## Hədis

Hədis termin olaraq **Hz. Peyğəmbərin sözü, feli, əshabı tərəfindən edildiyini görüb etiraz etmədiyi davranışlar (təqrir) və onun yaradılışı və ya xasiyyəti ilə əlaqəli hər bir məlumat** deməkdir. Hədis Hz. Peyğəmbərdən eşidən səhabədən başlayaraq onu rəvayət edənlərin adlarının yazıldığı *sənəd* ilə Hz. Peyğəmbərin söz, fel və ya təsdiqinin yazıldığı *mətn*dən ibarətdir. Yəni hədis dedikdə sənəd və mətndən ibarət yazılı əsər başa düşülür.

**Hədis elmi** iki əsas bölümə ayrılır:

**a. Rəvayətul-hədis elmi.** Hz. Peyğəmbərin sözü, feli, təqriri, halları, həmçinin bunların rəvayət və zəbt edilməsi ilə

əlaqəli elm qoludur. Hədis mətnlərindən ibarət olan kitablar bu sahəyə aid qaynaqlar sayılır. Hədis elminin bu qolu **“hədis nəqlində xətadan uzaq olma”** **təməli üzərində aparılan çalışmaları əks etdirir.**

**b. Dirayətul-hədis elmi.** Hədis terminləri elmi kimi də tanınır. Bu elm qolu hədisi meydana gətirən sənəd və mətni anlamağa kömək edən bir sıra qaydaları əhatə edir. Məhz həmin qaydaların köməyi ilə hər hansı bir hədisi qəbul və ya rədd etmək mümkündür. **Hədis üsulu** və **fiqhul-hədis** ilə əlaqəli əsərlər bu elmin qaynaqları sayılır.

Bu elmin hədəfi Hz. Peyğəmbərin hədislərinin başqa sözlərlə qarışdırılmasının, təhrifinin və iftiraya məruz qalmasının qarşısını almaqdır. Hz. Peyğəmbərə nisbət edilən sözün həqiqətən ona aid olub-olmadığını məhz bu elmi qaydalar əsasında anlamaq mümkündür.

**Hədis elminin qayəsi** səhih və doğru rəvayətləri qeyri-səhih və yalan rəvayətlərdən ayırmaqdır. Başqa ifadə ilə, Hz. Peyğəmbərin demədiyi sözü ona dedirtməmək, etmədiyi bir işi ona etdirməməkdir. Bu, sünnənin mayasındakı paklığa xələl gətirməmək məqsədi daşıyır.

Hər iki qolu ilə birlikdə hədis elminin inkişafı **"təbliğ vəzifəsi"** və **"Hz. Peyğəmbərə yalan istinad etməməyə diqqət"** prinsiplərinin həssas ölçülərlə həyata keçirilməsinə bağlıdır. Bu xüsusda ilk və ən mühüm cəhdlər Hz. Peyğəmbərin ən xeyirli nəsil kimi gördüyü əshabi-kirama aiddir. Onlar **Rəvayətul-hədis** elminin qurucusu olduqları kimi **Dirayətul-hədis** elminin də təməlini atan simalardır. Allah hər birindən razı olsun.

Əshab səhabə sözünün cəm formasıdır. Səhabə müsəlman olaraq Hz. Peyğəmbəri görən və həmin imanla ölən adama deyilir. Hər hansı bir səhabə ilə görüşmə fürsəti əldə edən adama da **tabein** deyilir.

# Sünnə

**Sünnə** lüğətdə "yol" deməkdir. Yolun yaxşısına da, pisinə də sünnə deyilir. Konkret olaraq "gözəl yol" mənasına gəlir. Qurani-Kərimdə bu söz davam edən adət, kainatın nizamındakı qanunlar, gedilən yol mənasında işlənir. Bir də *"sünnətullah"* termini işlənir. Bu, Allahın qoyduğu qaydalar, cəmiyyətlərin həyatında müşahidə olunan inkişaf, tənəzzül və hətta yox olmada keçərli olan ilahi qanunlar deməkdir.

Termin olaraq **sünnə Hz. Peyğəmbərin söz, fel və təqrirləri ilə İslamı yaşayaraq şərh etməsidir.** Bu baxımdan sünnə hədisdən daha əhatəlidir. **"Sizə iki şey qoyub gedirəm. Onlardan möhkəm yapışdığınız müddətdə yoldan çıxmazsınız: Allahın kitabı və Rəsulunun sünnəsi"** (Malik, Muvatta, Qədər 3) hədisində də bu mənanı açıq-aydın görürük. Bu gün hədis

deyəndə sünnə, sünnə deyəndə hədis başa düşülür. Sünnənin cəm forması sünən olduğu kimi Hz. Peyğəmbərin söz, fel və təqrirlərinə aid hədislərdən ibarət bəzi kitablara da *Sünən* deyilir.

Başlanğıcda hədisin Hz. Peyğəmbərin sözlərini, sünnənin isə fel və davranışlarını ifadə etmək üçün işlənməsi hədisi sünnədən ayırmaq üçün kifayət deyil. Bu birlik əsla sünnəyə özündən olmayan bir şeyi qarışdırmaq mənasına gəlməz. Müstəşriqlərin bu istiqamətdə irəli sürdüyü iddialara qulaq asmamaq lazımdır. Onsuz da **sünnə hədis kitablarında oxuduğumuz hədis mətnləri deyil, onların mənalarıdır.**

**Sünnə** Quranı şərh etdiyi üçün dəlillərin sadalanmasında Qurani-Kərimdən sonra gələrək ikinci dəlil sayılır. Quran **"oxunan vəhy"**, sünnə **"rəvayət olunan vəhy"**, (Şafei, Risalə, s. 91-92) hədis isə **"rəvayət olunan sünnə"** (Qasımi,

Qavaidut-təhdis, s. 35-38; Cəzairi, Təvcihun-nəzar, s. 2) deməkdir.

Hədis kitablarımız **rəvayət olunan vəhy** adlandırdığımız **sünnə**nin yazılı mətnləri ilə doludur. Bu mətnlərin keyfiyyətinə görə fərqli və xüsusi terminlərlə ifadə edilməsi və müxtəlif hökmlərə bağlanması elmi mövzudur. Bu keyfiyyət və terminlər Hədis Üsulu elminin predmetidir.

# B. Peyğəmbər və Sünnə ehtiyacı

Uca Allah insan oğlunu **mükərrəm** və **mükəmməl** bir varlıq olaraq yaratmışdır. Lakin bu mükəmməlliyinə baxmayaraq insan ilahi xitaba birbaşa və bilavasitə müxatəb olacaq quruluşa sahib deyil. Məhz bu səbəblə insanın dünyada həyata başladığı gündən etibarən Allah-Təala onların arasından seçdiyi "nəbi" və ya "rəsul" adlanan peyğəmbərləri özü ilə qulları arasında vasitə edərək onları insan və Yaradan arasında əlaqələndirici kimi vəzifələndirmişdir.

Bütün peyğəmbərlər Allahın əmr və qadağalarını Onun qullarına çatdırmaq və onlara doğru yolu göstərməklə

vəzifələndirilmiş **hidayət elçiləri**dir. Peyğəmbərlər bu müqəddəs elçilik vəzifələrini layiqincə yerinə yetirməyə çalışmışlar. Bizim Peyğəmbərimiz Muhamməd səllallahu əleyhi və səlləm də ümmətinə Allah-Təalanın istədiyi kimi yaşamaları üçün lazım olan məlumatları həyatında tətbiq edərək göstərmişdir. Bütün peyğəmbərlər kimi bizim peyğəmbərimizin də iki əsas vəzifəsi vardır: **təbliğ və bəyan.**

**"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil edilənі** (Quranı) **təbliğ et. Əgər** (bunu) **etməsən, (Allahın) risalətini** (sənə həvalə edilən elçilik, peyğəmbərlik vəzifəsini) **yerinə yetirmiş olmazsan".** (əl-Maidə, 67)

**"Sənə də Quranı nazil etdik ki, insanlara onlara göndəriləni** (hökmləri, halal-haramı) **izah edəsən".** (ən-Nəhl, 44)

Hz. Peyğəmbər vəhy yolu ilə Allahdan aldığı Quran ayələrini vəzifəsinin gərəyi olaraq sadəcə insanlara çatdırmaqla kifayətlənmir, eyni zamanda onları açıqlayıb şərh edirdi. Onun əsl vəzifəsi təbliğ etdiklərini açıqlayıb izah etmək idi. Burada qeyd etməliyik ki, Peyğəmbərimizin vəzifəsi **universal** olduğu üçün verdiyi izahlar da buna uyğun xarakter daşıyırdı. Yəni sünnə **Quranın universal** səviyyədə Hz. Peyğəmbər tərəfindən izahı mənasına gəlirdi.

Belə bir sual yarana bilər: Müqəddəs kitabımız Qurani-Kərimin **qüsursuz, qaneedici və açıq-aydın** olmasına, dinimizin də kamil mənada tamamlanmasına baxmayaraq sünnənin ifadə etdiyi bu izah və şərhə həqiqətən ehtiyac varmı? Bu bir gerçəkdir ki, həqiqətən uca kitabımız kifayət qədər açıq və qaneedicidir. Lakin onun bu xüsusiyyətinə rəğmən hədəf kütləsi olan insanların anlayış səviyyəsi müxtəlif olduğuna

görə onu hər kəsin doğru anlayıb qavraması mümkün deyil. Digər tərəfdən məsul olmaq üçün eşitmək deyil, anlamaq da lazımdır. İnsanları anlamadıqları şeydən məsul tutmaq doğru deyil. Ona görə də kimin nəyi anlaması şərtdirsə, ona həmin şeyi anlatmaq lazımdır. Ən yaxşı, ən gözəl, ən doğru və ən qənaətbəxş izahatı da əlbəttə ki, Quran ayələrini gətirən və təbliğ edən Peyğəmbər edəcəkdir. Peyğəmbərin izahatları heç bir zaman Quranın nöqsan, yetərsiz və qapalı olduğu mənasına gəlməz. **"Allaha qul olmaq"**dan başqa vəzifəsi olmayan insanlar yalnız bu izahatlar sayəsində Allaha necə qulluq edəcəklərini öyrənəcəkdilər. Bu səbəblə **sünnəsiz müsəlmanlıq haqda fikirləşmək** mümkün deyil.

**Həyatın ilahi iradə istiqamətində formalaşması xüsusunda Sünnə Quran ilə birlikdə** və **onun yanında yer alaraq anlaşılması üçün birin-**

**ci dərəcəli vəzifəni daşıyır.** Bunun belə olduğunu həm Peyğəmbərə itaəti əmr edən Qurani-Kərim, həm də Hz. Peyğəmbərin şəxsən özü belə ifadə etmişdir.

Qurani-Kərimdə belə buyurulur:

**"Peyğəmbər sizə nə verirsə, onu götürün; nəyi qadağan edirsə, ondan əl çəkin".** (əl-Həşr, 7)

**"De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın".** (Ali-İmran, 31)

**"Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər** (Allahdan, qiyamət günündən qorxanlar) **və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!"** (əl-Əhzab, 21)

**"Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gü-**

**nünə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin!"** (ən-Nisa, 59)

**"Amma, xeyr!** (Ya Rəsulum!) **Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim** (münsif) **təyin etməyincə və verdiyi hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə,** (həqiqi surətdə) **iman gətirmiş olmazlar".** (ən-Nisa, 65)

**"Sən** (onunla insanları) **düz yola yönəldirsən".** (əş-Şura, 52)

**"Onun** (Allahın, yaxud Peyğəmbərin) **əmrinə qarşı çıxanlar başlarına gələcək bir bəladan, yaxud düçar olacaqları şiddətli bir əzabdan həzər etsinlər!"** (ən-Nur, 63)

**"Peyğəmbərə itaət edən kimsə, şübhəsiz ki, Allaha itaət etmiş olur".** (ən-Nisa, 80)

Hz. Peyğəmbər belə buyurur:

*"...Kim mənim sünnəmdən (həyat tərzimdən) üz döndərərsə, məndən deyil".* (Buxari, Nikah 1; Müslim, Nikah 5)

*"Dinin əldən çıxması sünnənin tərki ilə başlayar. Kəndirin lif-lif qopub parçalanması kimi din də sünnənin bir-bir tərk edilməsi ilə ortadan qalxar".* (Darimi, Müqəddimə 16)

Bu ayə və hədislər müsəlmanların sünnəyə sarılaraq və ondan ayrılmamağa çalışmaq surəti ilə müsəlman şəxsiyyətini qoruya biləcəklərini göstərir. Bu da bir gerçəkdir ki, sünnənin tərk olunması ilə yaranacaq boşluq sünnənin tamamilə ziddi sayılan bidət ilə doldurulacaqdır.

**Sünnə** ümumi mənada və qısaca **"İslam mədəniyyəti"** deməkdir. **Bidət** isə İslam mədəniyyəti ilə ziddiyyət təşkil edən, onda heç bir yeri olmayan, lakin ona yamanmağa çalışılan yad ün-

sürdür. Müxtəlif qitə və iqlimlərdə yaşayan müsəlmanlar arasında əsrlər uzunu müşahidə edilən müştərək dəyərlər və tətbiqat bənzərlikləri sünnənin təyin ediciliyi, birləşdiriciliyi, bütünləşdiriciliyi, yəni beynəlmiləl oluşu sayəsində gerçəkləşmişdir. Xülasə edəcək olsaq, ümmət sünnə ilə var olar, onunla yaşayar.

Son zamanlar tez-tez ***“endirilmiş din, uydurulmuş din”*** sayıqlamaları ilə müsəlmanlar arasına fitnə toxumları səpərək Peyğəmbər hədislərini qəbul etmədən, İslamı doğru anlamaq üçün Quranın kifayət etdiyini söyləyənlər var. Bu kimi hədsiz çıxışlara Türkiyə Diyanət Vəqfi başqanı Prof. Dr. Mehmet Görmezin 2017-ci ilin fevral ayında işıq üzü görən ***“Diyanət”*** jurnalında verdiyi cavabı eynilə burada qeyd etmək istəyirik:

Həm elmi, həm də əxlaqi nöqteyi-nəzərdən bu fikirlə razılaşmaq mümkün deyil. Ərəb dünyasında da “dini-münəzzəl” və “dini-mübəddəl” adı altın-

da belə bir təsnifata qaçanlar olmuşdur. Təəssüflər olsun ki, Türkiyə mediasında da bu təsnifat dilə gətirilməyə başladı. Bu, doğru deyil. Üç ehtimal var:

1) Əgər kimsə bu təsnifatla "endirilmiş din" mənim inandığım və sizə anlatdığım dindir, başqalarının təbliğ etdiyi və yaşadığı din uydurulmuş dindir, - demək istəyirsə, - hər hansı bir müsəlmanın bunu qəsd edə biləcəyini ehtimal etmirəm – bu təsnif ideoloji təkfirçiliyin ən pis ifadəsi sayılar. Əlbəttə ki, belə bir şey qəbul edilə bilməz.

2) Əgər bu təsniflə "endirilmiş din" Hz. Peyğəmbərə (s.ə.s) gələn, onun və əshabının tətbiq etdiyi dindir, ondan sonra gələn müsəlmanların dini tamamən dəyişdirməsi nəticəsində "uydurulmuş din" meydana çıxdı, - demək istəyirlərsə, bu da İslam tarixinə atılan ən böyük iftira olar. İslamın tamamən təhrif edildiyini və dəyişdirildiyini iddia etmək Allahın kitabına və o kitabdakı

bütün vədlərinə ziddir. Belə bir iddia İslam tarixini təkfir etmək mənasına gələr.

3) Üçüncü ehtimal; əgər bu təsnifdən məqsəd dinin sadəcə Cəbrayıl (ə.s) vasitəsi ilə nazil olan vəhydən ibarət olduğunu, vəhyinsə yalnız Qurandan ibarət olduğunu iddia etməkdirsə, yəni Hz. Peyğəmbəri, onun Sünneyi-Səniyyəsini, səhih hədis və sadiq xəbər mirasını "uydurulmuş din" kateqoriyasına daxil etməkdirsə, bu din İslam ola bilməz. Çünki İslam bir bütün olaraq Hz. Peyğəmbərə gələn vəhylə onun bəyan edib yaşayaraq bizə təbliğ etdiyi həqiqətlər məcmusudur. Ümmətin icması, rəy və qiyasa əsaslanan fiqh mirası əqli-səlimin ictihadı, istehsanı, məsləhəti və bütün bunları da "uydurulmuş din" kimi görmək həm elmə, həm də ağla zərərdir. Hüsnü-zənnə əsaslanaraq belə qəbul edək ki; bu təsnifata yol verənlər tarix içərisində dinə qarışan yanlış düşüncələri, adət-ənənəni, israiliyyatı, mə-

sihiyyatı, bidət və xürafələri qəsd edirlər. Lakin bu da doğru deyil. Çünki dində mübaliğəyə yol vermək sənət deyil, yalandır. Üç-dörd uydurma xəbərə görə Rəsuli-Əkrəmin sünnəsini və hədis mirasını tamamən rədd etmək endirilmiş dedikləri dinin hər ayəsinə ziddir.

# C. Sünnə ilə əlaqəli bəzi xüsuslar

## 1. Sünnənin mənbəyi

Qurani-Kərim həm ləfzi, həm də mənası ilə vəhy olduğu üçün ona *vəhyi-mətluv* (oxunan vəhy) deyilir. Sünnə isə bir növ vəhyin məal və məfhumu olduğuna görə vəhy sayılır. Lakin ləfzən vəhy keyfiyyəti daşımır. Bu səbəblə də *vəhyi-qeyri-mətluv* adlanır.

Həzrət Peyğəmbər vəhy, üstün bəşəri ağıl və nəbəvi ağıl, yaxud da peyğəmbərlik təcrübəsi (mələkeyi-nübüvvət) adlanan üç yolla elm əldə etmək imkanına sahibdir. Bu mövqeyi səbəbi ilə o, başqalarının dərk edə bilmədiyi bir sıra ilahi həqiqətləri qavrayaraq ən münasib şəkildə ifadə edərək, eyni zaman-

da öz həyatında tətbiq edərək insanlara şərh edir. Sünnənin aliliyi, başqalarının şərhlərindən üstünlüyü buradan qaynaqlanır.

Hz. Peyğəmbərdəki bu peyğəmbərlik xüsusiyyətinə, başqa cür desək, nübüvvət elminə Qurani-Kərimdə müxtəlif söz və ifadələrlə işarə edilir: zikr, hökm, hikmət, şərhi-sadr, təfhim, təlim və iradə kimi. Hz. Peyğəmbərin ilahi iradəni bəyan edən şərhləri Allahın nəzarət və izahatı altında qorunan nəbəvi ağıldan irəli gəlir. Sünnəyə tabe olmaq zərurəti də məhz bu ilahi-nəbəvi xüsusiyyətindən irəli gəlir.

## 2. Sünnənin dindəki yeri

Yuxarıda qeyd etdiyimiz kimi, Hz. Muhammədin peyğəmbərliyinin başlanğıcından vəfatına qədər Qurandan xaric söylədiyi hər sözü və ya hər hərəkəti sünnə daxilində yerini almışdır. Daha

qısa və fiqh üsulu alimlərinin anlayışına uyğun bir izahla: "Sünnə Allah Rəsulunun söz, fel və təqrirlərindən ibarətdir". Şəri dəlillərin ikincisi olan sünnənin tərifində "peyğəmbərlik" qeydi əvəzolunmaz ünsürdür. Beləliklə, Allah Rəsulunun peyğəmbərliyinin başlanğıcından vəfatına qədər Quran xaricində söylədiyi hər söz və ya hər hərəkət sünnə içərisində yerini almışdır. Bu söz və fellərin ümmət üçün ümumi hökm qoyması ilə xüsusi adamlara və ya şəxsinə aid olması arasında heç bir fərq yoxdur. Həmçinin onun felinin yaradılışla əlaqəli olub-olmaması da nəticəni dəyişdirməz. Bütün bunlar nəticədə fərqli hökmlərə bağlansa da, *"Peyğəmbərin ortaya qoyduğu söz və fellər"* olaraq "*sünnə"* daxilindədir. Bəzisinə vacib, bəzisinə məndub, bəzisinə məkruh və s. deyilməsi, bəzisinin bütün ümmətə, bəzisinin də yalnız bir sıra insanlara aid olması başqa mövzudur.

Yalnız burada bir daha qeyd edək ki, Hz. Peyğəmbərin sözlərini "sünnə"dən ayrı düşünmək istəyənlərə, buna əsas olaraq da başlanğıcda sünnə deyiləndə Hz. Peyğəmbərin sadəcə fellərinin anlaşıldığını, sözlərinin bu mənaya gəldiyini iddia edənlərə etibar olunmamalıdır.

Bütün müsəlmanlar sünnənin dəlil olmasında yekdilliklə eyni fikirdədirlər. Yəni "sünnə"nin dində dəlil olmadığını söyləyən heç bir qrup və ya insan yoxdur.

Digər tərəfdən, Kitabın Sünnəyə görə üstün olması məsələsində də heç bir fikir ayrılığı yoxdur. Zira Kitab ləfz olaraq Allah tərəfindən endirilmiş, ibadətlərdə oxunması əmr edilmiş, bütün bəşəriyyətin ən kiçik surəsinin bənzərini gətirməkdən aciz qaldığı ilahi bəyandır. Sünnə isə bu vəsfləri daşımır. Bu nöqteyi-nəzərdən baxdıqda, əlbəttə ki, dəlillərin ardıcıllığında Qurandan sonra gəlməlidir.

Quranda sünnənin hüquqi dəlil olduğunu göstərən ayələr mövcuddur. Bu səbəblə sünnəyə aid hər hansı bir dəlilin, məsələn, təzad kimi görünən bir ayənin zahirini qorumaq məqsədi ilə diqqətə alınmaması sünnənin dəlil olduğunu göstərən ayələrin hamısının diqqətə alınmaması mənasına gəlir.

Həmçinin Peyğəmbərin **möcüzə** göstərməsi də Rəbbindən təbliğ etdiyi şeylərin güvənilən, doğru və xətadan qorunmuş olduğunu isbat edir. Deməli, Kitab və Sünnənin hər biri digərini dəstəkləyir və doğrulayır. Dində dəlil olmaları da eyni dərəcədə qətidir.

İmam Şafeinin ifadəsi ilə desək, Quranın oxunan, sünnənin rəvayət edilən vəhy olması hər şeydən əvvəl bu mənbə birliyi içindəki iki dəlil arasında hər hansı bir təzadın olmamasını gərəkli qılır. Buna bağlı olaraq da əgər zahirən bir təzad varsa, bu təqdirdə hər ikisinin də ayə olması ehtimalı qarşısında nə

ediləcəksə o cür hərəkət edilməlidir. Biri sünnə dəlilidir, digəri Kitabdır deyib dərhal birincidən vaz keçilməməli, lazımi elmi araşdırma surəti ilə cəm-təlif, nəsx və ya tərcih kimi həll yollarına müraciət edilməlidir.

Sünnənin Quran qarşısında üç vəzifəsi vardır: təkid, təfsir, təşri.

**Təkid**: Sünnə hər hansı bir hökmə Quran kimi dəlalət edir, yəni hər cəhətdən Quranın hökmünə münasib bəyan ifadə edir. Məsələn, **"Namazı qılın, zəkatı verin", "Ey iman gətirənlər, oruc sizə fərz qılındı", "Kəbəyə getmə imkanı olanların həcc etməsi Allahın insanlar üzərindəki haqqıdır"** ayələrində qətiyyətlə ifadə edilən İslamın şərtlərini *"İslam beş təməl üzərində qurulmuşdur"* (Buxari, İman 1, 2; Müslim, İman 19-22) hədisi" – "tətbiqata dair heç bir izahat verməcən- sadəcə hökm baxımından bəyan edir. Həmçinin **"Mallarınızı aranızda**

**haqsız yerə yeməyin”** (əl-Bəqərə, 188) ayəsi ilə *“Heç bir müsəlmanın malı öz rizası olmadan halal deyil”* (Əbu Davud, Mənasik 56) hədisi bir-biri ilə ahəng təşkil edərək eyni mənaya gəlir.

Burada belə bir sual yarana bilər: Sünnənin Quranı dəstəkləməsi və gücləndirməsi Quran üçün nə qədər qiymətlidir? Bu xüsus Sünnə ilə Quran arasındakı qaynaq eyniliyindən doğan bir ahəngi göstərdiyi üçün ələ alınmalıdır. Quran üçün olmasa da, Quranın xitab etdiyi insanlar nöqteyi-nəzərindən Sünnənin Kitabı təkid etməsi və gücləndirməsi böyük məna kəsb edir. Buradakı bərabərlik digər nöqtələrdəki birliyin və ahəngin göstəricisi kimi qəbul edilməlidir.

**Təfsir və ya bəyan:** Sünnə Qurani-Kərimdə yer alan hər hansı biri hökmü müəyyən cəhətdən izah edir. Buna ümumi mənada qısa təmas edilmiş **(mücməl)** hökmlərlə, çətin başa düşülən **(müşkül)**

hökmlərin açıqlanması, mütləq hökmlərin müəyyən şərtlərə bağlanması **(təqyid)** və ümumi hökmlərin xüsusiləşdirilməsi **(təxsis)** aiddir. Məsələn, namaz və zəkatın tətbiqatı xüsusunda məsələyə aydınlıq gətirən hədislər, həmçinin ***"ağ sap qara sapdan seçilənə qədər"*** (əl-Bəqərə, 187) ayəsindəki ağ və qara sapdan məqsədin gündüzün aydınlığı ilə gecənin qaranlığı olduğunu ifadə edən hədislər, həmçinin ***"İman gətirib imanlarını zülmə qatışdırmayanlar"*** (əl-Ənam, 82) ayəsindəki zülmdən məqsədin "*şirk*" olduğunu bildirən hədis sünnənin bu xüsusiyyətini ortaya qoyur.

Sünnənin ən başlıca vəzifəsi Kitabı izah etməkdir. Bu səbəblə "Sünnə Kitabın şərhidir" deyilmiş və Kitabla Sünnə arasındakı münasibət də şərh edən-şərh olunan şəklində ifadə olunmuşdur.

Sünnənin bu iki vəzifəsi **(təkid və təfsir)** haqqında İslam alimləri arasında heç bir fikir ayrılığı yoxdur.

**Təşri** (qanun qoymaq): Quranın hökm vermədiyi hər hansı bir mövzuda sünnənin hökm verməsidir. Alimlər bu mövzu ətrafında mübahisə ediblər. Bəzi alimlər deyirlər ki, "Allah-Təala Peyğəmbərə itaəti fərz qılıb və Peyğəmbərin ilahi rizaya uyğun hərəkət edəcəyini bildiyi üçün Kitabda hökm verilməyən məsələlər barəsində Peyğəmbərə hökm vermək səlahiyyəti tanımışdır". Bəziləri bu fikirdədir ki, "Heç bir sünnə yoxdur ki, mütləq Quranda onun əsli olmasın. Namazın necə qılınacağını göstərən sünnənin namazın qılınmasını əmr edən ayəyə əsaslanması kimi digər məsələlərdəki təşri sünnələr də mütləq surətdə bir ayəyə əsaslanır. Peyğəmbər nəyi halal və ya haram edibsə, onları Allah tərəfindən buyurulan bir açıqlama olduğu üçün ortaya qoymuşdur".

Bir sıra alimlər isə belə deyirlər ki, "Peyğəmbərin sünnə olaraq ortaya qoyduğu hər şey onun qəlbinə Allah tə-

rəfindən qoyulan hikmətdən ibarətdir. Peyğəmbərin qəlbinə qoyulan şey onun sünnəsini təşkil edir".

Bu fikirlər sünnənin başlı-başına hökm verəcəyi haqda yekdillik ifadə edir. Sadəcə olaraq Peyğəmbərin verdiyi hökmü birbaşa Allahın yardımına əsaslanaraq, yoxsa ona vəhy edilərək və ya qəlbinə gələn ilhamla ortaya çıxdığı xüsusunda ixtilaf vardır. Fikirlərin müxtəlifliyi məhz bu dəyərləndirmə və ifadə üzərindədir.

Belə bir sual yarana bilər: Kitabda olmayan bir hökmü sünnənin müəyyən etməsi Kitaba müxalifət mənasına gəlməzmi? Sualın cavabı:

Kitaba edilən əlavə bu üç halda ola bilər:

1. Həmin mövzu Qurani-Kərim və Rəsulullah tərəfindən daha öncə ortaya qoyulmamış olar.

2. Mövcud olan bir hökmü ortadan qaldırar, yəni nəsx edər. (Sünnə mütəvatir olarsa, bu ehtimal ola bilər)

3. Hökmü müəyyən bir məsələyə təxsis edici (muxəssis) ola bilər.

Bu nə deməkdir? Yəni Kitab üzərinə əlavə -əgər belə bir şey varsa- ya hökmü ortadan qaldırıcı (nasix) və ya bir məsələylə məhdudlaşdırıcı (muxəssis) olmalıdır. Bu iki halda da, diqqət edərsək, iki xüsus var:

a. Kitabın (yəni ayənin) bəyanı (izahı).

b. Kitabın izah vermədiyi bir məsələdəki hökmü müstəqil formada izah etməsi.

Muxəssis bir tərəfdən ümumi olaraq nəssin hökmünü həmin hökmə daxil olanların bir neçəsi ilə məhdudlaşdırarkən, digər tərəfdən də həmin ümumi nəssin əhatəsindən çıxarılanların hökmünü təkbaşına bəyan edir. Məsələn, **“bunlardan başqaları evlənmək üçün sizə**

**halal edildi”.** (ən-Nisa, 24) ayəsindən sonra Rəsulullah (s.ə.s) *“Qadının xalası ilə eyni nikah altına alınması haramdır. Nəsəb yolu ilə haram olan süd əmmə yolu ilə də haramdır”* (Buxari, Nikah 27; Müslim, Nikah 33) buyurmuşdur. Bu, belə məna-ya gəlir: Ayədəki “bunlardan başqaları” ifadəsindən məqsəd adı çəkilməyənlərin hamısı yox, bəziləridir. Belə olan təqdirdə ayə burada zikr olunmayan bəzilərinin halallığına dəlalət etmiş, hökm xaricində qalanların hökmünü açıqlamamış olur. Rəsulullahın bəyanı müxəssis olaraq həm həmin bəzi fərdlərin sözügedən hökmün xaricində olduqlarını, həm də hökmdən kənar sayılanların haramlığını açıqlamış olur. Yəni muxəssis həm ayənin hökmünü açıqlayır, həm də ayənin sükut etdiyi nüansa dair hökmü müstəqil formada ortaya qoyur. Bu səbəblə Kitabı təxsis, təqyid və ya nəsx edən sünnəyə dair dəlillərin **bəyan və müstəqillik**

olmaq şərtilə iki qisim olduğu unudulmamalıdır.

Elə isə yuxarıdakı əsas və izahlar çərçivəsində sünnənin müstəqil formada təşri (şəriət qoyan) qaynaq olduğunu açıqca söyləyə bilərik. Fiqh kitablarında gördüyümüz "bu mövzunun məşruluğu sünnə ilə sabitdir" ifadələri də sünnənin müstəqil təşri qaynağı qəbul edildiyini göstərir. Məsələn, məstlər üzərinə məsh etmək, yağmur duası və namazı, şüfa, luqata, içki içənə veriləcək cəza bu kimi məsələlərdəndir.

Burada bir xüsusa da diqqət edilməlidir. Nəbi səllallahu əleyhi və səlləm hər hansı bir hökmün təbliği məsələsində xətaya düşməkdən qorunmuşdur. Bu hökm istər vəhyi-mətluv, istərsə də vəhyi-qeyri-mətluv olsun. İstər müstəqil hökm qoysun, istər bəyan edici, istərsə də təyid edici olsun, xətadan qorunmaq baxımından fərq yoxdur. Hətta bütün şəriət vəhyi-qeyri-mətluv, yəni sünnə

olaraq göndərilsəydi, yenə də xətaya düşməkdən qorunar, təbliği də bağlayıcı olardı. Necə ki, peyğəmbər olaraq göndərilməyin şərtləri arasında mütləq kitab endirilmə şərti yoxdur. Digər tərəfdən Allah-Təalanın peyğəmbərinə kitabında endirmədiyi bir hökmü təbliğ etməsinə mane olan hər hansı bir hal da yoxdur. Çünki "(Allah) **gördüyü işlər barəsində sorğu-sual olunmaz**". (əl-Ənbiya, 23)

## 3. Sünnənin aidiyyatı

Sünnənin bağlayıcı olması qətidir. Peyğəmbərə tabe olmağı, onun verdiyi hökmlə razılaşmağı və onun hökmü qarşısında möminlərə seçim haqqı tanınmadığını bildirən ayələr sünnənin müsəlmanların həyatındakı təsirini ortaya qoyur.

Lakin Hz. Peyğəmbərin müxtəlif vəsflərlə ortaya qoyduğu sünnənin bağlayıcılıq dərəcəsinin və çərçivəsinin eyni

olmadığı da bir həqiqətdir. Hz. Peyğəmbər:

**Risalət** (peyğəmbərlik),

**İfta** (müftülük),

**Qəza** (hakimlik),

**İmamət** (dövlət rəhbərliyi) kimi vəsflərdən birindən hərəkət edir.

**Risalət,** yəni peyğəmbərlik vəsfi ilə ortaya qoyduğu sünnə, ümumiyyətlə, ayələri açıqlamaq (təfsir), müəyyən şərtə bağlamaq (təqyid), müəyyən şəxslərə xüsusiləşdirmə (təxsis), halal-haramı açıqlamaq, əqaid və əhkamı bəyan etmək məqsədi daşıyır. Bu növ sünnə ilahi əhkamın bəyan və təfsiri olduğu üçün hökmü qiyamətə qədər davam edəcəkdir. Çünki Hz. Peyğəmbər bu təbliğ və bəyan səlahiyyətində təbliğçi və **nəql edən** mövqeyindədir. Allah qatından ona bildirilən həqiqətləri nəql və bəyan etməkdədir. **Hz. Peyğəmbərin**

**bu sifətlə ortaya qoyduğu səlahiyyətləri bütün ümmətə şamildir.**

**İfta** Allah-Təalanın hökmünü dəlillərdən ortaya çıxararaq dini sualları cavablamaq, Allah adına əhkamdan xəbər vermək, təbliğ və izah etməkdir. Hz. Peyğəmbər bu səlahiyyətində dəlillərə bağlıdır. **Bu yolla ortaya qoyduqları da ümmətə şamildir.**

**Qəza** iki və ya daha çox adam arasında baş verən mübahisələrdə səbəb və dəlillərin meydana gətirdiyi qənaətə görə haqlı ilə haqsızı müəyyən etmək məqsədi ilə verdiyi hökmlərdir. Peyğəmbər burada yeni bir hökm ortaya qoyur.

Hz. Peyğəmbər hüzuruna gətirilən mübahisəli məsələlər xüsusunda ümumi vəziyyəti göstərmək üçün belə buyurmuşdur:

*“Mənə şikayətlə gəlirsiniz, mən sadəcə olaraq bəşərəm. (Kimin haqlı olduğu*

*xüsusunda) mənə vəhy gəlməyib. Vəhy gəlməyən məsələlərdə öz rəyimə görə hökm verirəm. Ola bilər ki, sizdən biri digərinə nisbətən dəlilini daha təsirli irəli sürər, mən də onu haqlı zənn edərək lehinə hökm verərəm. Hökmümdə kimə qardaşının haqqını versəm, əsla ona yaxın durmasın. Mən ona od parçası vermiş olaram".* (Əhməd bin Hənbəl, Müsnəd VI, 307, 320; Buxari, Əhkam 20)

**Hz. Peyğəmbərin qəza səlahiyyətindən hərəkət edərək ortaya qoyduğu sünnə yalnız şikayətçi ilə müttəhimə aiddir. Lakin hökm verərək istifadə etdiyi metod, diqqətə aldığı əsaslar qəza və hüquq üsulunda bizə nümunə olmuşdur.**

**İmamət** (dövlət rəhbərliyi) səlahiyyəti ilk üç vəsf və səlahiyyətdən fərqlənir. Burada icraedici güc mövcuddur. Digər tərəfdən peyğəmbərliyin dövlət rəhbərliyi tələb etmədiyi də bir gerçəkdir. Çünki bəzi peyğəmbərlərə hökmdarlıq

verilməmiş, bəzilərinə isə verilmişdir. Həm hökmdar, həm də peyğəmbər olan Rəsulullahın bu iki vəsflə sərgilədiyi davranışlar bir-birindən fərqlənir.

**Hz. Peyğəmbərin dövlət rəhbəri vəsfi ilə etdikləri həm digər dövlət rəhbərlərinə şamil edilməz, həm də dövrün dövlət rəhbəri izin verməḋiyi müddətdə buna bənzər haqlar möminlər tərəfindən özbaşına əldə edilə bilməz.** Qənimətlərin bölüşdürülməsi, dövlət malının münasib şəkildə istifadə olunması və xərclənməsi, cəzaların təyini, ordunun təşkili, torpaq, mədən, su kimi təbii ehtiyatların özəl şəxs və ya təşkilatların səlahiyyətinə verilməsi kimi xüsuslar bu cür səlahiyyətlər arasındadır. Rəhbər və ya təmsilçisi izin vermədiyi müddətdə bunların alınması, işlənməsi və icra edilməsi caiz deyil. Bu mövzulardakı səlahiyyətlər sonrakı rəhbər tərəfindən dəyişdirilə bilər. Məsələn, Hz. Osman üsyançıların

üstünə əsgər göndərmədiyi halda, Hz. Əli göndərmişdi.

Hz. Peyğəmbərin davranışları xüsusunda ən mühüm nüans onun bu və bu kimi hərəkətləri hansı vəsf ilə həyata keçirdiyidir. Alimlər bu nöqtədəki fərqli təsbitlər səbəbi ilə bir çox mövzuda müxtəlif fikir yürütmüşlər. Məsələn, Hz. Peyğəmbər belə buyurmuşdur: "Bir yeri işləyərək, istifadəyə yararlı hala salan ona sahib olar". (Buxari, Hars 15)

Hz. Peyğəmbərin bu hədisi-şərifi ifta və təbliğ sifəti ilə dəyərləndirilsə, başqa birinin mülkiyyətində olmayan torpağı istifadəyə yararlı hala gətirən adamın ona sahib olmasına zəmin yaranmış olur. Necə ki, İmam Şafei bu hədisi fətva və təbliğ təsərrüfünə bağlamışdır. "Çünki Rəsulullahın əsas işi və sifəti budur, əksinə dair dəlil olmadıqca hədisləri bu cür qəbul etmək lazımdır" – demişdir. Belə olduğu təqdirdə də bu haqdan istifadə etmək üçün heç kimdən izin almaq lazım gəlmir. Hər kəs istə-

nilən sahibsiz torpağı əkib-becərərək ona sahib ola bilər.

Hz. Peyğəmbər bu hədisi dövlət başçısı sifəti ilə söyləmişsə, bu hökm digər dövlət rəhbərlərinə aid deyil. Onlar öz ölkələrində və zəmanələrində ictimai faydanı diqqətə almaq surəti ilə dövlətə aid torpaq üzərində hökm sahibidirlər. Torpağın əkilib-becərilməsi də dövlətin izninə bağlıdır. Əbu Hənifə bu fikirdədir. Çünki torpaq üzərində onu başqasına bağışlamaq (iqta) və s. formada təsərrüf haqqı və vəzifəsi dövlət başçısına aiddir.

İmam Malik bu məsələdə şəhər və şəhərətrafı sahələri bir-birindən fərqləndirmiş, şəhər torpaqlarını dövlət başçısı sifəti ilə əlaqəli olaraq dəyərləndirmişdir. Çünki buralarda yaşayan insanların əmin-amanlığını qorumaq dövlət rəhbərinin məsuliyyəti altına girir. (Mövzu ilə əlaqəli ətraflı məlumat üçün bax. Qərafi, İhkam, s. 86-109; İbn Aşur, *Məqasiduş-Şəria*, s. 27-40)

Bu misalda gördüyümüz kimi Hz. Peyğəmbərin bir sözü hansı vəsflə söylədiyini dəqiqləşdirmək fövqəladə əhəmiyyət kəsb edir. Çünki sünnənin aidiyyat çərçivəsini müəyyənləşdirmək eyni zamanda həmin xüsusun düzgün müəyyənləşdirilməsi ilə əlaqəlidir.

Sünnənin şamil olması bir gerçəkdir. Cərəyan etdiyi mövzuya və əsaslandığı vəsfə görə fiqhi hökm baxımından (vacib, məndub, müstəhəb kimi) müxtəliflik göstərməsi onun əsas xüsusiyyətini (insanlara şamil olmasını) ortadan qaldırmaz, əksinə, tətbiqat sahəsini və qiymət hökmünün açıq müəyyənləşdirilməsi mənasına gələr.

## 4. Sünnənin hərtərəfli bütünlüyü

Bu bir gerçəkdir ki, sünnə bütün həyatı, yaxud həyatın bütün mərhələlərini hərtərəfli əhatə edir. Bu, **sünnənin beynəlmiləl bütünlüyüdür.**

**“De: “Ey insanlar! Mən Allahın sizin hamınıza göndərilmiş peyğəmbəriyəm.** (O Allah ki) **göylərin və yerin hökmü Onundur”** (əl-Əraf, 158) ayəsi və mövzuya aid digər ayələr İslamın beynəlmiləl din olduğunu elan edərkən eyni zamanda Hz. Peyğəmbərin elçiliyinin, nəticə etibarilə də sünnəsinin, həyat tərzinin beynəlmiləl xarakterini ortaya qoyur.

İslam təbliğinə müxatəb olan insanlar arasında müxtəlif cəhətlərdən fərqliliklərin olacağı təbiidir. Bu fərqliliklərə baxmayaraq hər bir insan və ya cəmiyyət yatmaq, yeyib-içmək, ağlamaq, gülmək, alver etmək, xeyir iş görmək, öyrənmək və öyrətmək, xəstələnmək, müalicə almaq kimi həyatın bütün hallarında özlərinə nümunə götürəcəkləri bir rəhbərə möhtacdırlar. Bu ehtiyac ruhi və hissi sahələrdə və əlaqələrdə daha böyükdür.

Bütün sinfi cəmiyyətlərin hər ehtiyacını fərd, ailə, millət, ümmət və bəşəriyyət səviyyəsində, universal səviyyədə təmin etmək, formalaşdırmaq, etalonlaşdırmaq sünnənin məsuliyyət və xüsusiyyətidir. Allah-Təalanın Hz. Peyğəmbəri **"ən gözəl örnək"** kimi tanıtması onun yaşayışında həyatın bütün şərtlərinə görə nümunə götürüləcək müxtəliflik və ahəng olduğunu göstərir.

Səhabələr Hz. Peyğəmbərin həyatını və ondakı rəngarəngliyi "o peyğəmbərdir, bizdən fərqlidir" düşüncəsi ilə deyil, "onun həyatının bizə işıq tutan cəhətləri var, ondan nümunə götürməliyik" nöqteyi-nəzəri ilə qəbul etmişlər. Hz. Peyğəmbərin həyatını ciddi və obyektiv şəkildə araşdıran hər kəs nəticədə "tarix boyu heç kimdə cəm olmayan, həyatın hər sahəsinə təsir edən üstün xüsusiyyətlərin Rəsuli-Əkrəmdə cəm olduğunu etiraf etmək məcburiyyətində qalmışdır".

Həm Qurani-Kərimin şəhadəti, həm də məkkəlilərin ona **"əl-Əmin"** ləqəbini vermələrindən aydın olur ki, Hz. Peyğəmbər təmiz keçmişə sahib olmuşdur. Hətta məkkəlilər onun peyğəmbərliyinə qarşı çıxanda da özünü **"daha əvvəl aralarında yaşadığını"** xatırladaraq müdafiə etmişdir. Bu o deməkdir ki, Hz. Peyğəmbərin peyğəmbərlikdən əvvəlki həyatı belə nümunə götürüləcək qədər təmizdir.

Peyğəmbərlikdən sonrakı həyatı isə hardasa bütün mərhələləri ilə göz önündədir.

Nümunə götürüləcək və örnək alınacaq şəxsin praktiki həyat sahibi olması fövqəladə əhəmiyyət kəsb edir. Bu da hərtərəfli həyat təcrübəsinə sahib olması ilə mümkündür. Ümmət üçün Hz. Peyğəmbərin yeganə örnək şəxsiyyət olması məsələsi bir az da bu cəhətdən ələ alınmalıdır. Çünki **sünnə Hz. Peyğəmbərin Allahın əmrlə-**

**rinə uyğun hərəkət etmək məqsədi ilə seçib yaşadığı həyat, getdiyi yol deməkdir.** Bu mənada sünnə sonuncu ilahi kitab olan Quranın **“son peyğəmbər”, “aləmlərə rəhmət”, “üsveyi-həsənə”, “böyük əxlaq sahibi”, “möminlərə təşnə və onların əziyyətə düşməsindən çox narahat olan”** elçi kimi Rəsulullah tərəfindən beynəlmiləl ölçüdə ortaya qoyulan nəbəvi izahıdır.

Bu səbəblə də Qurani-Kərim bəşəri, coğrafi, tarixi, sosial, iqtisadi və peşə cəhətindən müxtəlifliyinə rəğmən bütün insanları Rəsulullahın sirətinə, həyat modelinə tabe olmağa, onun izindən getməyə, onun yolunu təqib etməyə dəvət edir. Çünki onun sünnəsi cəmiyyətin müxtəlif sinfindən olan insanların hamısına birdən nümunə olacaq zənginliyə sahibdir. Onun həyatı canlı Quran olaraq insan həyatı üçün praktiki nümunədir. Hər kəsin ondan

götürəcəyi nümünə var. Sünnəni bu bütünlük, zənginlik və universal şərtlər altında düşünməmək Hz. Peyğəmbəri və onun formalaşdırdığı İslam şəxsiyyətini qavramaqda və təbiəti ilə Rəsulullahı anlamaqda çəkilən çətinliklərin əsas səbəbidir. Məsələ ilə bağlı bütün mənfi və əsassız fikir və universal düzəldilməsi sünnəni beynəlmiləl bütünlük içərisində ələ almağa bağlıdır.

Həzrət Peyğəmbərin sünnəsinin beynəlmiləl səviyyədə tətbiq olunacaq bütünlüyə və elastikliyə sahib olduğunu göstərən əshabi-kirama aid bir neçə tədqiqi belə sadalamaq olar:

**Öhdəsindən gələ biləcəklərini əmr edərdi.** Hz. Aişə nəql edir: *"Rəsulullah (s.ə.s) əshabına nə isə əmr etdikdə daima asanlıqla öhdəsindən gələ biləcəkləri işləri əmr edərdi"*. (Bax. Buxari, İman 13)

**Ümmətini fikirləşərdi.** İbn Abbas (r.anhumə) Hz. Peyğəmbərin: *"Əgər*

*ümmətimi çətinliyə salmaqdan narahat olmasaydım, yatsı namazını gec saatda qılmalarını əmr edərdim”,* buyurduğunu (Buxari, Məvaqit 24), Əbu Hüreyrə (r.a) də: *“Ümmətimə çətinlik törədəcəyindən qorxmasaydım, onlara hər dəfə dəstəmaz alarkən misvakdan istifadə etmələrini əmr edərdim”* (Müslim, Təharət 42) buyurduğunu xəbər verir. Yenə Əbu Hüreyrənin (r.a) bildirdiyinə görə Hz. Peyğəmbər *“Sizə hər hansı bir şeyi qadağan etdiyim zaman ondan qətiyyətlə uzaq durun. Nə isə əmr etdiyim zaman da gücünüz çatan qədər yerinə yetirin”.* (Buxari, Etisam 2) buyurmuşdur.

Rəsuli-Əkrəm (s.ə.s) göstərdiyi yolda dini eşqlə də olsa, həddi aşmağa əsla xoş baxmamışdır. *“Bəzilərinə nə olub ki, mənim etdiyim kimi etməkdən çəkinirlər. Allaha and içirəm ki, aralarında Allahı ən yaxşı tanıyan və Ondan ən çox qorxan mənəm”.* (Buxari, Etisam 5) buyuraraq **əsla heç kimin özündən daha**

**üstün bir müsəlman ola bilməyacəyini** dilə gətirmişdir.

"Mümkün olanları əmr etməsi"nə baxmayaraq onun əmrlərinə əhəmiyyət verməyərək qarşı gələnləri də əsla xoş qarşılamamışdır. Sələmə bin Əqva nəql edir: "Rəsulullah (s.ə.s) sol əli ilə yemək yeyən Büsr bin Rail-ayrı gördü və:

- **Sağ əlinlə ye!** – buyurdu. Büsr:

- Yeyə bilmirəm, - dedi. (Müslimin rəvayətində bu sözü lovğalanaraq söylədiyi bildirilir) Hz. Peyğəmbər:

- **Yeyə bilməz ol!** – buyurdu.

Ravi Sələmə bin Əqva deyir ki, bundan sonra həmin adamın sağ əli ağzına qalxmadı". (Bax. 161, 614, 742 nömrəli hədislər)

**Hz. Peyğəmbər ətrafındakılara qarşı mərhəmətli idi, camaatı nəzərə alardı.** Ənəs bin Malikin (r.a) müşahidələri bunu göstərir:

*“Rəsulullah (s.ə.s) heç nəyi naqis qoymadan insanların ən xəfif namaz qıldıranı idi”.*

*“Rəsulullah (s.ə.s) namaz qıldırarkən anası ilə məscidə gələn bir uşağın ağlamasını eşidəndə qısa surə oxuyardı”.* (Buxari, Azan 65; Müslim, Salət 37, 187)

Əsas prinsipi asanlaşdırmaq idi. Hz. Peyğəmbər bu prinsipi *“Asanlaşdırın, çətinləşdirməyin. Müjdələyin, nifrət etdirməyin!”* (Buxari, Elm 11) şəklində elan etmişdir.

Bu rəvayətlərdən də anlayacağımız kimi, **sünnə asanlaşdırma və sevdirmə prinsipinə əsaslanaraq İslamın tətbiq edilməsində ibarətdir.** Bu səbəblə də hər bir insan və cəmiyyət Hz. Peyğəmbərin həyatından və sünnəsindən nümunə götürəcək bir çox şey tapa bilər. Çünki bütün bəşəriyyəti bir şəxsiyyətdə cəm edib nümunəyə çevirmək Allah-Təala üçün əsla çətin deyil. Bu

səbəblə Hz. Peyğəmbərin sirəti həyatın hər bir mərhələsini əhatə edən bir bütünlük içərisindədir. O, Allahın verdiyi səlahiyyətlə ölkə krallarına, dövlət başçılarına, yaylaqda sürüsünü otaran çobanlara, məktəbdə dərs deyən müəllimlərə, sinifdəki tələbələrə, obadakı kasıblara, köşkdə yaşayan zənginlərə, hərbi hissələrdəki ordulara, komandanlara, ailədəki ata-analara, uşaqlara, bir sözlə, bütün insanlara eyni şəkildə səslənməkdə, özünü təqibə dəvət etməkdədir. Çünki onun sirəti və həyatı bütün insanlar üçün ən gözəl nümunədir. Çünki onun sünnəsi dünyanı bağrına basacaq bir zənginlik, müxtəliflik, bütünlük və ahəng mənzuməsidir.

Hz. Peyğəmbərin hərb-sülh, ibadət-ticarət, haqq və ədalət, cinayət-cəza kimi ciddi və mühüm məsələlərlə məşğul olması demək olar ki, hər kəs tərəfindən tamamilə təbii qarşılandığı halda, gündəlik bəşəri davranışlarının

forma və şəkilləri ilə də məşğul olması bəzilərinin ağlına sığmaya bilər. Bir dəfə Salman Farisiyə bir müşrik istehza ilə belə dedi:

- Görürəm ki, dostunuz Muhamməd sizə hər şeyi, hətta ayaqyolunda necə oturacağınızı da öyrədir.

Salman (r.a) ciddi əda ilə:

- Bəli, düz deyirsən, - dedikdən sonra Hz. Peyğəmbərin ayaqyolu ədəbi mövzusunda verdiyi tövsiyələri sadaladı.

Şübhə yoxdur ki, işlərin və vəzifələrin əhəmiyyətinə görə ardıcıl sıralanması əsasdır. Ancaq insan həyatındakı hər şeyin müəyyən formada islah edilməsi, inanc sisteminin əsaslarına münasib hala gətirilməsi də eyni dərəcədə əhəmiyyət kəsb edir. Hz. Peyğəmbər ümmətinə eynilə bir ata kimi hər şeyi öyrətmiş, onların izzət və şərəfinə yaraşan davranışları göstərmişdir. Burada "kiçik işlərlə məşğul olmaq" kimi bəsit-

lik deyil, "ən kiçik məsələyə belə laqeyd yanaşmamaq kimi ciddiyyət, məsuliyyət və insanı bütün olaraq dəyərləndirmək" kimi dərin həssaslıq yatır. Salman (r.a) bunun fərqində idi və məsələyə istehza ilə yanaşaraq mövzunu "bir peyğəmbər də belə bəsit işlərlə məşğul olarmı" deməyə gətirən müşrik düşüncə tərzinə bütün paklığı ilə hayqırırdı: "Bəli, bizə hər şeyi o öyrədir!"

Abdullah bin Ömər (r.anhumə) də:

- Biz həzər (muqimin qıldığı namaz) namazı ilə qorxu namazını Quranda tapa bilirik. Lakin səfər namazını Quranda tapa bilmirik. Bu necə olur? - deyən Ümeyyə bin Abdullah bin Xalidə:

- Bax, oğlum, heç nədən xəbərimiz olmadığı halda Allah Muhammədi bizə peyğəmbər göndərdi. Biz Muhammməddən nəyi necə etdiyini görmüşüksə, onu elə edirik (Nəsai, Təqsirus-salət 1) - deyərək, əshabın məlumat mənbəyinin

və hər sahədəki örnəyinin Hz. Peyğəmbər olduğunu açıq şəkildə ifadə edirdi.

Hz. Peyğəmbərin sünnəsinin beynəlmiləl xarakter daşıması onun əshabi-kiram tərəfindən dəyişdirilməsinə mane olmuşdur. Necə ki, Hz. Aişə: "Əgər qadınların yeni icad etdikləri halları Rəsulullah görsəydi, İsrail oğullarının qadınlarına qadağan olunduğu kimi onların məscidə getməsinə mane olardı" (Buxari, Azan 163; Müslim, Salət 144) deməklə yanaşı nə özü belə bir şeyi qadağan edir, nə də xəlifələrdən belə bir qadağa qoymalarını istəyirdi. Çünki *"Allahın xanım bəndələrinin Allahın məscidlərinə getmələrinə mane olmayın!"* (Buxari, Cümə 13) hədisi-şərifi ona bu səlahiyyəti vermirdi.

Sünnəni beynəlmiləl bütünlük içində düşünmək və hər bir hərəkətimizdə onu istinad nöqtəsi kimi mənimsəmək, bizi özlüyümüzdə qaneedici izahata gələ bilmədiyimiz sünnələri rədd etməkdən

xilas edəcək. Hətta onların da keçərli olacağı bölgə və dövrlərin ola biləcəyi fikrinə gələcəyik. Bu isə İslam mədəniyyəti dediyimiz sünnəyə dair heç bir məlumatın əsla məhv olmamasını zəruri qılır. Hz. Peyğəmbər bütün həyatı boyu söz və davranışları ilə Quranda bildirilən həqiqətləri izah etmişdir. Zöhrinin dediyi kimi "Peyğəmbərlik Allah vergisidir. Rəsulun vəzifəsi təbliğ, bizimki təslimiyyətdir". (Bax. Bəğavi, Şərhus-sünnə, I, 217)

Nəticə olaraq bir daha vurğulamalı olsaq, sünnənin əsas xüsusiyyəti gerçəkçi olması, beynəlmiləl və tətbiq edilə bilən olmasıdır. Əslində bunlar həmçinin İslamın xüsusiyyətləridir.

İslam ən son və ən mükəmməl din, Hz. Muhamməd də ən son peyğəmbərdir. Qiyamətə qədər keçərli olan Quran və onun birinci dərəcəli şərhi və feli nümunəsi olan sünnə bütün şərtlərdə yaşayan insanların problemlərinə həll yolları göstərmək və müsəlmanlar ara-

sında inanc və davranış birliyini təmin etməklə mükəlləfdir.

Eyni mövzuda müxtəlif məlumatlar və fərqli tətbiqat imkanları göstərən hədislərin bu nöqteyi-nəzərdən baxanda təbiilik ünsürü olduğu, sözünü etdiyimiz müxtəlifliklərin, yaxud seçim imkanlarının ümmət üçün tamamilə *rəhmət vəsiləsi* olduğu açıq-aydın ortadadır. Çünki İslam müəyyən bir bölgəyə və ya şəhər əhalisinə gəlməmişdir. İslam bütün bəşəriyyətə göndərilmişdir. Ona görə də gətirdiyi əsasların qiyamətə qədər dünyanın hər tərəfində tətbiq edilə bilməsi ona inananların hidayətləri baxımından həyati bir tələbdir.

## 5. Sünnənin qorunmuş olması

Allah-Təala Qurani-Kərimdə kafirlər istəməsə də nurunu tamamlayacağını bildirmişdir. (ət-Tövbə, 32) "Allahın nuru" qulları üçün seçdiyi, onları bundan məsul tutduğu və Rəsuluna vəhy etdiyi şə-

riətidir. Bu, həm Quranı, həm də Sünnəni əhatə edir.

Allah-Təala **“Şübhəsiz ki, Zikri Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyub saxlayacağıq!”** (əl-Hicr, 9) buyurmuşdur. Bu ayədə yer alan zikri Kitab və Sünnə kimi başa düşmək mümkündür. Zikr sözü Quran ilə təfsir edilməli olsa, bu təqdirdə ayədəki həsr (mənanın təsir sahəsini məhdudlaşdırıcı şərt) ifadəsindən Quran xaricində heç nəyin qorunmayacağı, qoruma hökmünün yalnız Qurana şamil olduğu mənası çıxmaz. Çünki Allah-Təala Quranda Quran xaricində başqa şeyləri də qoruyacağını bildirmişdir. Məsələn, Rəsulullahı insanların şərindən qoruyacağını bildirmiş və qorumuşdur. Həmçinin ərşi, göyləri və yeri qiyamətə qədər qoruyacaqdır. Ayədəki “ləhu” sözünün sonda gəlməsi həsr üçün deyil, ayələrin sonundakı ahəngə riayət üçündür.

Quranın qorunması sünnənin də qorunmasını ehtiva edir. Çünki Sünnə Quranın şərhidir və onu kimlərinsə nəfsinə görə izah etməsinin qarşısını alır. Bu səbəblə Quranın qorunması sünnənin də qorunması deməkdir.

Sünnənin qorunması ümmətə, ümmətin alimlərinə həvalə edilmişdir. Yəni sadəcə Quran ilə Sünnənin qorunma formalarında fərq var. Bu da İslam alimlərinin hədis elmlərinin bütün sahələrində aldıqları elmi tədbirlərlə mümkün olmuşdur.

Sünnə tamamilə ümmət tərəfindən qorunmuşdur. Fərdləri tək-tək gözdən keçirdiyimiz zaman, əlbəttə ki, onların bütün sünnəni əhatə edə bilmədikləri görülsə də, bütün ümmətə nəzər saldığımız zaman sünnədən heç nəyin əskilmədiyi aydın olacaqdır. Eynilə bir dil aliminin hər hansı bir dili tamamilə bilməsi mümkün olmasa da, həmin dildə danışan millətin o dildəki bütün

sözləri bilməsi kimi. Hətta dövrün xəlifəsi İmam Malikə Muvattanı yeganə hədis kitabı olaraq elan etməsi xəbərini göndərdikdə imam: “Bizim əldə etmədiyimizi başqaları əldə etmiş ola bilər”, – deyərək etiraz etmiş, beləcə, sünnəni ümmətin bütünü çərçivəsində düşünməyin zərurətini xatırlatmışdır. Yəni fərd olaraq bildikləri məhdud olsa da, nəticədə bütün alimlər müxtəlif yönləri ilə sünnəni əhatə etmişlər. Bu da sünnənin hər bir incəliyinin qorunduğunu göstərir.

## 6. Sünnənin qurtarıcı olması

Sünnədən istifadə edə bilmək üçün ilk növbədə onun **“ən gözəl nümunə”** olduğuna, yaşana bildiyinə, insana və onun ehtiyaclarına ən gözəl cavablar verdiyinə, önünə alternativ qoyduğuna inanmaq lazımdır. Çünki Hz. Peyğəmbər aləmlərə rəhmət və hidayət rəhbəri olaraq göndərilmişdir. Onun sünnəsi

hidayətdə ola bilməyin çarələrini göstərir. Sünnənin qurtarıcı olduğundan şübhəyə düşmək Hz. Peyğəmbərin risalətinə qarşı çıxmaq mənasına gəlir. Necə ki, bir dəfə Abdullah bin Məsud belə xəbərdarlıq etmişdir: "*Nəbinizin sünnəsini tərk etdiyiniz zaman yoldan çıxarsınız*".

**"Sən onları doğru yola (islam dininə) dəvət edirsən!"** (əl-Muminun, 73) və **"Əgər ona itaət etsəniz, doğru yolu tapmış olarsınız"** (ən-Nur, 54) ayələri sünnənin qurtarıcı olduğunu ortaya qoyan Quran dəlilləridir.

Hz. Peyğəmbər də müxtəlif hədisi-şəriflərində öz mövqeyindən xəbər verərkən eyni zamanda ümmətin qurtuluşuna verdiyi töhfəni açıq şəkildə göz önünə sərir. Özünü oda atmağa çalışan kəpənək və pərvanələri qovub uzaqlaşdırmağa çalışan adam kimi olduğunu xatırladaraq: "*Mən sizi belinizdəki bağdan tutub oda düşməkdən qurtarmağa çalışıram, siz isə əlimdən xilas olub*

*özünüzü oda atmağa çalışırsınız”*, buyurmuşdur. Bu kimi bir çox hədislərində, təmsil yolu ilə, ümmətinin xilaskarı olduğunu dilə gətirmişdir. Onun özünü düşmənləri görüb qaçaraq gələn və millətinə xəbər verən bir carçıya bənzətməsi də bu xüsusda qaneedicidir:

*“Mənim və Allahın mənimlə göndərdiyi İslamın halı bir qrup insanın yanına gəlib belə deyən adamın halına bənzəyir:*

*- Camaat, həqiqətən, mən üstünüzə gəlmək üzrə olan bir ordunu gözlərimlə gördüm. Mən bu təhlükəni sizə xəbər verən carçıyam. Canınızı qurtarın!*

*Bu sözlərdən sonra əhalinin bir hissəsi ona itaət etdi və axşamdan yola çıxaraq təbii şəkildə (tələsmədən) olduqları yeri tərk edib getdilər, bununla da xilas oldular. Bəziləri də onu yalanladılar və yerlərindən tərpənmədilər. Səhərə yaxın ordu onlara basqın etdi*

*və hamısını qılıncdan keçirdi. Məhz bu hal mənə itaət edib gətirdiklərimə tabe olanlarla üsyan edib Haqdan gətirdiklərimi yalanlayan kəslərin halına bənzəyir”.* (Buxari, Etisam 2)

Sünnəyə bağlı olanların xilas olduğu qətidir. Tabeun müfəssirlərindən Dəhhaq bin Müzahim nə gözəl ifadə etmişdir: “Cənnətlə sünnə eyni mövqedədir. Axirətdə cənnətə girən, dünyada isə sünnəyə sarılan qurtular”. (Qurtubi, Təfsir XIII, 365) İmam Malik də sünnəni Nuh əleyhissalamın gəmisinə bənzətmiş və “Ona minən xilas olar, minməyən boğular”, - demişdir. (Süyuti, Miftəhul-cənnə, s. 53-54)

# D. Sünnəyə qarşı etirazlar

İslam tarixində sünnəni qaynaq qəbul etməyib inkar edən hər hansı bir məzhəb olmamışdır. Sünnənin şəri dəlillərdən olduğunu hər bir məzhəb qəbul etmişdir. Lakin sünnəni prinsip olaraq qəbul etməklə birlikdə onun yazılı sənədi sayılan hədislərə zaman-zaman etiraz edən qruplar olmuşdur. Bu etirazların gərəyi kimi də Qurani-Kərimin ön plana çıxarıldığı görülür. Məsələn, əshabi-kiramdan İmran bin Husayn radiyallahu anh Hz. Peyğəmbərin sünnəsindən danışarkən bir nəfər:

"Ey Əbu Nüceyd, bizə Qurandan danış", - demişdi. Bu zaman İmran:

"Sən və sənin kimilər Quran oxuyursunuz, elə deyilmi? Mənə namazdan,

namazın içindəki əməllərdən danışa bilərsən? Mənə qızılın, inəyin, dəvənin və digər malların zəkatından nə deyə bilərsən? Lakin sən olmadığın vaxt mən Peyğəmbərlə birlikdə idim", - deyə sərt cavab vermişdi.

Sonra İmran həmin adama Hz. Peyğəmbərin zəkat barəsindəki izahatlarından söz açdı. O da:

"Məni əhya etdin, Allah da səni əhya etsin", - dedi.

Hadisəni nəql edən Həsən Bəsri həmin adamın sonradan müsəlmanların fəqihlərindən olduğunu deyir. (Hakim, əl-Müstədrək, I, 109-110)

Bu və bu kimi tək-tük hadisələrə ta qədimdən, yəni səhabə dövründən rast gəlinmişdir. İmam Şafei bu kimi fikirdə olanlarla mübahisə edib onlara cavab verən və susduran ilk müəlliflərdəndir. Ona görə də müasir dövrümüzdə mo-

dernistlər tərəfindən tənqidə məruz qalmışdır.

Uzun müddət səsləndirilməyən bu kimi etirazlar Qərb istismarının təsiri ilə son bir-iki əsrdə İslam dünyasında yenidən gündəmə gəlmişdir.

Misirdə Tövfiq Sidqi, Əhməd Əmin, İsmayıl Ədhəm və Əbu Rayyə kimi adamlar və müəyyən bir zaman ərzində də olsa onları dəstəkləyən bir neçə nəfər, Hindistanda Əhli-Quran Cəmiyyəti ətrafında toplaşan adamlar və onların digər İslam ölkələrindəki davamçıları indi yenidən "Quranla kifayətlənmə"yə dəvət edərək **"sünnəsiz İslam anlayışı"**nı qəbul etmişlər. Hər mövzuda ayə axtarmaqla, ayədən başqa özlərini bağlı hiss edəcəkləri başqa bir qəti dəlilin olmadığını irəli sürürlər.

Bu düşüncənin gedib çıxacağı son nöqtəni Əhli-Quran Cəmiyyətinin qurucusu Qulam Pərviz Əhmədin həyatın-

da izləmək mümkündür. O, "Qurandan kənar hər hansı bir sözlə əməl edənlər –istərsə həmin söz Hz. Peyğəmbərə aid və mütəvatir-səhih hədis olsun- **"Allahın endirdiyi ilə hökm etməyənlər kafirlərdir"** (əl-Maidə, 44) ayəsinin hökmünə girərlər" demək cürəti göstərmişdir. Bunun müqabilində dövrünün alimləri də onun küfrə düşdüyünə dair fətva vermişdilər. (Məlumat üçün bax. Mübarəkfuri, Tuhfətul-əhvəzi, VII, 425)

Bu misalla gedəcəyi son nöqtəsi bəlli olan bu cərəyanın, təəssüf ki, ölkəmizdə də gündəmə gətirilməsi yeni yetişməkdə olan İslam şüurunun təməlini yaralayacaq təhlükəli addım olduğu açıq-aydın ortadadır.

Burada mövzu ilə əlaqəli iddiaların hamısını cavablayacaq imkanımız yoxdur. Lakin onu da söyləməliyik ki, Allah-Təalanın aramızdan seçdiyi peyğəmbərlər vasitəsi ilə əmr və qadağalarını bildirməsi acizlik və əskiklik

olmadığı kimi sünnənin də varlığı Qurani-Kərimin nöqsan olduğu mənasına gəlmir. Vəhyi qəbul edib öyrənmək xüsusunda insanların peyğəmbərlərin vasitəçiliyinə ehtiyacı olduğu kimi, Quranı başa düşməkdə də Peyğəmbərin izahına, yəni sünnəyə bir o qədər ehtiyac var. Təbii və doğru olan da budur. Bunun xaricindəki iddialar nə adına irəli atılırsa atılsın, necə təqdim edilirsə edilsin, tamamilə yanlışdır. Belə bir iddianın olacağı Hz. Peyğəmbər tərəfindən xəbər verilmiş, şəxsən onun tərəfindən də cavabı verilmişdir: "Sizdən birinə əmr etdiyim və ya qadağan etdiyim bir şey söyləndikdə əsla dirsəkləndiyi yerdən "biz onu-bunu bilmirik, sadəcə Allahın kitabında gördüklərimizə tabe olarıq" dediyini görməyim!" (Əbu davud, Sünnə 5; Tirmizi, Elm 10; İbn Macə, Müqəddimə 2)

İslam ümmətinin şəxsiyyət və xarakterini formalaşdıran şərh Hz. Peyğəmbərin şərhi, yəni sünnəsidir. Bu səbəblə

**sünnə İslamı anlamaq, qavramaq və yaşamaq xüsusunda vazkeçilməz ən doğru ölçü və izahdır.** Onun hədislərinə tuşlanan heç bir tənqid sünnədən uzaq qalmağı haqlı çıxartmaz. Başqa cür desək, nə sünnəsiz müsəlmanlıq olur, nə də sünnəyə rəğmən müsəlmanlıq...

### 1. Hədislər kəlmə-kəlmə olduğu kimi rəvayət edilmişdirmi?

Hədislərin Hz. Peyğəmbərin mübarək ağzından çıxdığı kimi kəlmə-kəlmə rəvayət edilib-edilmədiyi maraq doğurur. Bu suala qəti bir şəkildə bəli və ya xeyr demək mümkün deyil. Ləfzən rəvayət əsas olmaq şərti ilə **"mənanın əksinin söylənməməsi"** şərti ilə hədisin hədsiz dərəcə ciddi şərtlər altında mənası ilə rəvayət edilməsinə izin verilmişdir. Eyni hədisin müxtəlif rəvayətlərində görünən kəlmə dəyişiklikləri, təqdim və təxirlər həmin hədisin məna

ilə rəvayət edildiyini göstərir. Bütün hədislərin eyni sözlərlə rəvayət edildiyini düşünmək və tələb etmək sadəlövhlük və həqiqətdən uzaqlıqdır.

Digər tərəfdən, hədislərin məna ilə rəvayətinin mümkün olması –mənanı doğru əks etdirmək şərti ilə- onların başqa dillərə tərcümə edilməsinin caiz olduğuna da dəlil sayılmışdır. Məna ilə hədis rəvayətinə izin verilməsinə rəğmən ilk müsəlman nəsillər hədisə qarşı necə diqqətli və həssas davranmışlarsa, bu gün də tərcümələrdə həmin diqqət və həssaslığı göstərmək lazımdır. Hədisləri və hədis kitablarını necəgəldi, tələsik və gəlir əldə etmək naminə tərcümə və nəşr etmək bu cəhətdən böyük təhlükə daşıyır.

Onu da qeyd edək ki, məna ilə hədis rəvayətinə izin verilməsi hədislərin kitablarda cəm edilməsindən əvvəlki şifahi rəvayət dövrlərinə aiddir. Bu gün artıq heç kim məna ilə hədis nəql etmə

iqtidarında deyil. Kitablarda yer alan sözlərdən birini seçərək onu işlətmək məcburiyyəti var.

## 2. Şifahi rəvayətə güvənmək olarmı?

Hədis tarixinin və sünnəyə aid mətnlərin başqa ümmətlərdə misligörülməmiş həssaslıq və dəqiq elmi üsullarla nəql edilməsi, nədənsə, Qərbin elm dairələrini narahat etmişdir. Şifahi nəqlə əsaslanan qədim mədəniyyətlərin bir kəlməsini də olsa fəda etmək istəməyən qərblilər şifahi rəvayətə güvənməyin imkansızlığını, beləliklə də, başlanğıcda şifahi dönəm keçirən hədislərə bel bağlanmayacağını iddia edirlər.

Ta başlanğıcda doğru olaraq qeyd edilmiş və yaxşı mühafizə olunan yazılı vəsiqələrlə müqayisədə şifahi rəvayətin daha az əminlik təlqin etməsi düzdür. Ancaq bu, heç vaxt yazılı vəsiqələrin hər

cür təhlükədən uzaq qaldığı mənasına gəlmir. Şifahi rəvayətlərlə bağlı əminliyi zədələyən ehtimallar qədər yazılı vəsiqələr üçün də bir çox ehtimal mövcuddur. Necə ki, günümüzdəki mətbuat orqanları bu məsələdəki təhlükənin ölçüsünü saxta sənəd hazırlamaq, vəsiqələrin təhrifi kimi hadisələrlə demək olar ki, hər gün ictimaiyyətə səslənirlər.

Bu da öz növbəsində onu göstərir ki, əsas məsələ rəvayətin yazılı və ya şifahi olması deyil, həmin rəvayəti nəql edənlərin xarakteri, inanc dəyəri və mənsub olduğu mədəni səviyyəsidir. Çox mühüm sayılan bu nüansı diqqətdən yayındıraraq etibarı yazılı vəsiqəyə bağlamaq xətalı, mübahisə doğuran və böyük ehtimalla qəsdlə ortaya atılmış iddiadır.

Həmçinin qeyd etməliyik ki, hədislərin Hz. Peyğəmbər zamanından bəri şəxsən onun izni ilə yazılmağa çalışılması da tarixi bir faktdır. Üstəlik hər hansı bir hədis mətnindən əvvəl gələn

və **"sənəd"** adlandırdığımız hədis mətninin rəvayət edildiyi raviləri göstərən bölüm bizim şifahi rəvayətlərimizin də hər zaman elmi üsullara uyğun olduğunu sübut edir.

İlk dövrdə yaşayan müsəlman nəsillərin hədisləri dinə sahib çıxmaq məqsəd və cəhdi ilə ən sağlam şəkildə müəyyənləşdirmələri və qorumaları da gözardı edilməyəcək başqa bir faktdır.

## 3. Hədisçilər ancaq sənədlə məşğul olublar?

Hədislərin sənəd və mətn adlandırdığımız iki hissədən ibarət olduğunu qeyd etmişdik. Bu məlumatların həqiqətən Hz. Peyğəmbərə aid olduğunu öyrənmək üçün bu məlumatları bizə çatdıranları araşdırmalıyıq. Başqa cür desək, hədis ravilərinin keyfiyyətini araşdırmaq məcburiyyətindəyik. Ravilər hər bir hədisin sənədində adları çəkilən adamlardır. Hədisçilər bu adamları ən kiçik

xırdalığına qədər elmi üsullarla araşdıraraq verdikləri xəbərlər və rəvayət etdikləri hədislər mövzusunda qənaət sahibi olmağa və bu qənaətlərini xüsusi terminlərlə ifadə etməyə böyük əhəmiyyət vermişlər. Yəni xəbər qaynaqlarını araşdıraraq həmin qaynaqlardan gələn xəbərlərin sağlamlıq dərəcəsini araşdırmışlar. Bu sahədə, həqiqətən də, möhtəşəm elmi üsullar ortaya qoymuşlar. Ümumi olaraq hədisin keyfiyyətini açıqlamağı hədis mətninin sağlamlıq dərəcəsini müəyyənləşdirmək üçün kifayət görmüşlər. Bu mövzuda ciddi çalışmaların olduğuna diqqət çəkən bəziləri hədisçilərin sadəcə sənədlə məşğul olduğunu, onların mətnlə maraqlanmadığını irəli sürərək onları ittiham etmişlər.

Hədisçilərin sənədə xüsusi diqqət ayırdıqları düzdür. Lakin bu o demək deyil ki, onlar hədis mətnləri ilə məşğul olmayıblar. Mətn tənqidi sahəsində də xüsusi elm qolları var. Məsələn, hədis mətnlərində keçən və çətin başa

düşülən sözlər üzərində işləyən **“qəribul-hədis elmi”**, hədislərin başa düşülməsini asanlaşdıran **“hədislərin vürud səbəbini araşdıran elm”, “nasix-mənsux”** elmi, bir-birinə zidd kimi görünən hədisləri tədqiq edən **“muxtəliful-hədis elmi”**, Allah-Təalanın sifətləri ilə əlaqəli sözləri əhatə edən hədisləri araşdıran **“müşkülil-hədis elmi”** birbaşa hədis mətni ilə əlaqəlidir. Həmçinin **məqlub, müdrəc, münkər, musahhaf və muəlləl** kimi sənəd və mətn arasında müştərək işlənən termin və elmi ixtisaslar da mövcuddur.

Hədisçilər istər sənəd, istərsə də mətn tənqidində tarix, psixologiya və sosiologiyadan da faydalanmışlar. Bir sözün uydurma olub-olmadığını dəqiqləşdirmək üçün diqqətə aldıqları ölçülər hədisçilərin mətn tənqidi mövzusundakı çalışmalarının ən açıq nümunələrini formalaşdırmaqdadır. Bu məsələlər və bir çox xüsuslar mütəxəssislərə məlumdur. (Ətraflı məlumat üçün bax. Muhamməd Loğ-

man əs-Sələfi, İhtimamul-muhaddisin binəqdil-hadis sənədən və mətnən, Riyad 1408/1987)

Hədisçilər ilahi vəhyə müxatəb olan, cəvamiul-kəlim xüsusiyyətinə sahib olan bir Peyğəmbərin bəyanı ilə qarşı-qarşıya olduqlarını yaxşı bilirdilər. Bu kimi vəsflərə sahib olan Peyğəmbər müxtəlif səbəblərlə müasirlərinin anlaya bilmədiyi sözlər söyləyə, xəbərlər verə bilərdi. Buna mane olacaq heç nə yox idi. Qanun maddələri kimi lakonik sözlərlə hüquqi qaydalar qoya bilərdi. Sözləri məcazi məna ifadə edə bilərdi. Gələcəkdə kəşf ediləcək elmi bir həqiqətə işarə edə bilərdi.

Bütün bunlara görə hədisçilər digər insanların sözlərinə yönəltdikləri tənqidləri Hz. Peyğəmbərin hədislərinə yönəltməkdə ehtiyat etmiş, təmkinli davranmışlar. (Ətraflı məlumat üçün bax. Mustafa əs-Sibai, əs-Sünnə və məkənətuhə fit-təşriil-İslami, s. 275-279)

Biz hədisin sənəd və mətnlərini araşdırma üsullarının tarixdə bənzərinə rastlanmadığı və bunun yalnız müsəlmanlara aid elmi üstünlük olduğu qənaətindəyik.

# E. Bəzi suallar

## 1. Nə qədər səhih hədis var?

Səhih hədislərin sayı barədə dəqiq bir söz söyləmək mümkün deyil. Səhih adı ilə yazılan hədis kitablarında olan hədislərlə digər səhih hədis qaynaqlarındakı səhih hədislərin sayı təxminən iyirmi minə çatır. Ancaq unutmamaq lazımdır ki, səhih, həsən və zəif kimi terminlərlə anılan hədislər haqqında daima fərqli fikir irəli sürənlər ola bilər. Çünki bu dəyərləndirmələr araşdırmaya əsaslanan nisbi dəyərləndirmələrdir. Dövrümüzün kompüter texnologiyasından istifadə edərək "səhih" hökmü verilən hədisləri saymaq mümkündür. Böyük ehtimal ki, yaxın gələcəkdə bu

məsələ ilə bağlı müəyyən rəqəmlər vermək mümkün olacaqdır.

## 2. Səhih hədislər yalnız Kutubi-Sittədə yer alır?

Çox vaxt hədislər "Bu, Kutubi-Sittədə varmı?" və ya "Bu hədis Buxarinin kitabında keçirmi?" yaxud da "Müslimin kitabında varmı?" cümlələri ilə araşdırılır. Bu kimi suallar əslində səhih hədislərin yalnız Kutubi-Sittədə və ya Buxari və Müslimin "əl-Camius-Sahih"lərində olduğu, bunlardan kənarda qalan hədis kitablarına etibar edilməyəcəyi qənaətindən qaynaqlanır. Bu, bir çoxlarının hər şeyi Qurani-Kərimdə axtarmasına bənzəyir. Kifayət qədər dini savadı olmayanlara hər hansı bir dini əsas xatırladıldıqda dərhal "Bu, Quranda varmı?" deyərək etiraz mənasına gələn sual verirlər. Hər şeyi Quranda axtarmaq yanlış olduğu kimi, hədis adı ilə eşidilən hər sözü də mütləq surətdə

Buxari və Müslimdə tapmağa çalışmaq və ya Kutubi-Sittədə görmək istəmək də ən azından o qədər yanlışdır. Etibar olunacaq hər hədisin mütləq Buxari və Müslimdə olmasına inanmaq düşüncəsindən vaz keçmək lazımdır. Çünki Buxari də, Müslim də kitablarını bütün səhih hədisləri cəm etmək məqsədi ilə qələmə almayıblar. Kitablarında qeyd etdikləri hədislərin özlərinə görə "səhih" olmasına diqqət etmiş, lakin bütün səhihləri cəm etmək kimi bir fəaliyyət həyata keçirməmişlər.

Buxari və Müslim xaricində, hətta Kutubi-Sittə xaricində qalan digər hədis kitablarında da səhih hədislər yer alır. Bu da bir gerçəkdir ki, alimlər Buxari və Müslimin hər ikisinin kitabına qəbul etdiyi (müttəfəqun əleyh) hədisləri ən güclü səhih hədis qəbul etmişlər.

## 3. Şərhsiz hədis oxumaq düzdürmü?

Quranı və İslamı Sünnəyə müraciət etmədən anlamaq və yaşamaq nə qədər mümkündürsə, şərhlərə müraciət etmədən hədis oxumaq surəti ilə İslamı anlamaq və izah etmək də yalnız o qədər mümkündür. Bir çox yerdə insan öz anlayışının kifayətsizliyi səbəbi ilə çətinliyə düşə bilər. Bu səbəblə qısa da olsa şərhli əsərlərdən hədis oxumaq başlanğıcda meydana çıxacaq anlayış nöqsanlarının qarşısını alacaqdır.

Biz inanırıq ki, kamil müsəlman olmağın yolu Quranı və İslamı sünnədəki izahlarla anlayıb yaşamaqdan keçməkdədir.

# Mündəricat

**Hədis-Sünnə** ............................ 5
**A. Təriflər**.................................7
Hədis ...........................................7
Sünnə ........................................10
**B. Peyğəmbər və**
**Sünnə ehtiyacı** ..........................13
**C. Sünnə ilə əlaqəli**
**bəzi xüsuslar** ............................20
1. Sünnənin mənbəyi.....................20
2. Sünnənin dindəki yeri ...............21
3. Sünnənin aidiyyatı .....................33
4. Sünnənin beynəlmiləl bütünlüyü..41
5. Sünnənin qorunmuş olması ........55
6. Sünnənin qurtarıcı olması ..........57
**D. Sünnəyə qarşı etirazlar** .........61
1. Hədislər kəlmə-kəlmə olduğu
kimi rəvayət edilmişdirmi? ..............66

2. Şifahi rəvayətə güvənmək olarmı? ....................................68
3. Hədisçilər ancaq sənədlə məşğul olublar? ...............................70
**E. Bəzi suallar** ...............................74
1. Nə qədər səhih hədis var?...........74
2. Səhih hədislər yalnız Kutubi-Sittədə yer alır?...................75
3. Şərhsiz hədis oxumaq düzdürmü?....................................82